AZƏR-ÇEX Cəmiyyəti
Çexiya Respublikası-Praqa
CZ-181 00 Hlivická 417/22

Sdružení AZER-ČECH
Praha-Česká republika
CZ-181 00 Hlivická 417/22

www.diaspora.cz

10.1.2005 Praqa, Çexiya Respublikası.

Xarici Ölkələrdə Yaşayan
Azərbaycanlılarla İş Üzrə Dövlət
Komitəsi

Bakı və Gəncə şəhərindəki Uşaq evləri

Əziz həmvətənlər,

Çexiyadakı azərbaycanlıların fəaliyyət göstərən yeganə təşkilatı AZƏR-ÇEX Cəmiyyəti Azərbaycanımızı Avropada layiqli təmsil olunması üçün çalışır və imkan daxilində Vətənimizin problemlərinin həllində yardımçı olmağa səy göstərir. Konkret olaraq, AZƏR-ÇEX Cəmiyyəti və „Şri Çinmoy Sentr“ Humanitar Mərkəzinin Praqa ofisi arasında razılıq əldə etmişik və tibbi müəssisələrə, xəstəxanalara, məcburi köçkünlərə, əlillərə və kimsəsiz uşaq evlərinə lazım ola biləcək avadanlıq və materiallarla yardım etmək imkanı yaranmışdır. Bu proyekt uzunmüddətli və geniş miqyaslı ola bilər. Bunun üçün bütün qüvvələrimizi birləşdiməliyik.

Başlanğıc üçün belə qərara gəldik ki, Uşaq evlərində məskunlaşmış kimsəsizlər üçün aşağıdakı Multivitamin preparatlarını və rəngli qələmləri göndərək:

| **Multivitaminlər** | Qutuların sayı | Həblərin sayı<br>*Cəmi: 10 800 həb* |
|---|---|---|
| Multi-Tabs | 125 | 60 |
| Martanci | 90 | 30 |
| Spektrum | 20 | 30 |

*Qeyd: Avropa standartları ilə istehsal olunmuş yüksək keyfiyyətli bu multivitaminlərin tərkibində insan orqanizmi üçün gündəlik tələb olunan bütün vitaminlər, mineral maddələr və Jen-Şen extraktı vardır.*
***360 nəfər üçün nəzərdə tutulmuş bu vitaminlər 1 aylıq vitamin təminatını tam ödəyə bilər: 1 həb/1 gün.***

**Rəngli qələmlər**: 23 qutu / 10x qələm və 87 qutu / 6x qələm = 752 qələm.
*Qeyd: Qələmlər uşaq sağlamlığına zərər etmir-toksiki maddələrsizdir. 110 nəfər gələcəyin rəssamları üçün nəzərdə tutulub.*

Multivitaminlər üçün „Sri Chinmoy Center“ Humanitar təşkilatına, rəngli qələmlər üçün isə „Parangon“ şirkətinə minnətdarıq.

*Əzizlərim, Yeni 2005 ilində hərbirinizə can sağlığı, Vətənimizə əmin-amanlıq arzulayır, bizim gələcəyimiz olan uşaqlara isə Anamız Azərbaycanı sevməyi və onu qorumağı tövsiyyə edirik.*

Xoş arzularla

Dr. Elşən S. Nəzərov
AZƏR-ÇEX Cəmiyyətinin Sədri